

Bu gün Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının xarici QHT-lərin layihələrinin maliyələşdirilməsi çərçivəsində dəstək verdiyi "Avrasiya Sivil Toplum Əməkdaşlıq Dərnəyi" və "Avrasiya İqtisadi Əməkdaşlıq Dərnəyi"nin birgə təşkilatçılığı ilə Türkiyənin paytaxtı Ankarada "Qarabağ problemi: Hardan haraya" adlı konfrans keçirilb.

Şuranın mətbuat xidmətindən verilən məlumata görə, Şura sədri Azay Quliyevin, Türkiyəli millət vəkillərinin, diplomatik korpusun nümayəndələrinin, vətəndaş cəmiyyəti sektoru və KİV təmsilçilərinin, azərbaycanlı tələbələrin iştirakı ilə keçirilən toplantıda ilk olaraq 20 Yanvar faciəsindən bəhs edən foto sərgiyə baxış keçirilib.

Konfrans açıq elan edildikdən sonra Qarabağ, 20 yanvar və Qafqaz İslam Ordusu şəhidlərinin ruhu sayğı duruşu ilə yad edilib və çıxışlara başlanılıb.